# AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

# NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

Ə M R : Tədris şöbəsi-7663

Naxçıvan şəhəri 27 OCT 2023

Tədris (fənn) proqramlarının tərtibi qaydalarının təsdiqi haqqında

**Naxçıvan Dövlət Universitetində "Tədris (fənn) proqramlarının tərtibi qaydaları" aşağıdakı kimi təsdiq edilsin:**

## TƏDRİS (FƏNN) PROQRAMLARININ TƏRTİBİ QAYDALARI

### 1. Ümumi müdəalar:

1.1. Tədris (fənn) proqramı– Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş İxtisasların Təhsil Proqramlarının və Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının qərarı ilə təsdiq edilmiş Tədris Planlarının tələblərinə uyğun hazırlanmalıdır.

1.2. Tədris (fənn) proqramı - fənnin məzmununu, tədrisi məqsədini, tədrisin sonunda əldə olunacaq təlim nəticələri, formalaşdıracağı səriştələri təmin edən bilik, bacarıq, vərdişlərin həcmini, sistemini, ardıcıllığını, tədris metodlarını, tədrisin xarakterini müəyyənləşdirən, fənnin konkret vəzifə və prinsiplərini, müvafiq elmi əsaslarını, təlim və tədris və qiymətləndirmə metodlarını əks etdirən təhsil sənədidir.

1.3. Hazırlanan proqramda fənnin adı, qısa təsviri, tədrisi məqsədi, proqramın kompetensiyaları, fənnin sosnunda əldə olunacaq təlim nəticələri, kompetensiya əsaslı təlim nəticələri, proqramın nəticələri ilə əlaqəsini, fənnin öyrədilməsində istifadə olunacaq etibarlı tədris metodları, qiymətləndirmə metodları, mühazirə və məşğələ saatlarının miqdarı və məsləhət görülən ədəbiyyat siyahısı əksini tapmalıdır.

2. Tədris (fənn) proqramı aşağıdakı müddəalar və ardıcıllıq nəzərə alınmaqla tərtib edilməlidir.

- Fənnin qısa təsviri;
- Fənnin tədrisi məqsədi;
- Fənnin təlim nəticələri;
- Proqramın uyğun ümumi və peşə kompetensiyaları;
- Kompetensiya əsaslı təlim nəticələri;
- Proqramın təlim nəticələri ilə əlaqəsi;
- Fənnin tədrisində istifadə olunacaq səmərəli tədris metodları;
- Qiymətləndirmə metodları;
- Təxmini tematik plan;
- Mövzular və onların açılışı;
- Məsləhət görülən ədəbiyyat siyahısı;

Fənnin qısa təsviri və məqsədi

Fənn çərçivəsində tədris olunacaq mövzuların qısa xülasəsi, onun əhəmiyyəti, tədris planındakı digər fənlər ilə əlaqəsi və məqsədləri haqqında məlumat

Fənnin təlim nəticələri

Fənnin məqsədlərinə uyğun olaraq gözlənilən təlim nəticələrinin, yəni fənnin öyrənilməsinin nəticəsində təhsilalanın nələri biləcəyi, anlayacağı və tədris prosesini bitirdikdə hansı bacarıqlara yiyələnəcəyi qeyd olunur.

Proqramın uyğun ümumi və peşə kompetensiyaları

İxtisasın təhsil proqramında məzunun əldə edəcəyi ümumi və peşə kompetensiyaları əsasında fənnə uyğun gələnlər seçilir.

Kompetensiya əsaslı təlim nəticələri

Fənnin təlim nəticələri ilə uyğun kompetensiyaları əlaqələndirilir.

Proqramın təlim nəticələri ilə əlaqəsi

Təhsil proqramının təlim nəticələri ilə uyğunluğu göstərilir.

Fənnin tədrisində istifadə olunacaq səmərəli tədris metodları

Fənnin tədrisində istifadə olunacaq tədris üsulları göstərilir.

Qiymətləndirmə metodları

Fənnin qiymətləndirməsində səmərəli metodlar haqqında məlumat öz əksini tapır.

Təxmini tematik plan

Cədvəl əsasında mühazirə və seminar məşğələlərinin mövzuları və onlara ayrılan saatların təxmini bölgüsü göstərilir.

Mövzular və onların məzmunu

Proqramə daxil edilən hər bir mövzunun məzmununda öyrədiləcək təlim materialına dair bilik, bacarıq və vərdişlər üz əksini tapmalıdır.

Məsləhət görülən ədəbiyyat siyahısı

Dillər üzrə, əlifba sırası ilə, əsas və əlavə olmaqla müəllif, mənbənin adı, nəşr olunduğu yer, nəşr ili və səhifəsi qeyd olunur.

3. Proqramın texniki tərtibi və müzakirəyə təqdim edilməsi qaydaları

3.1. Səhifədə soldan 2 sm, sağdan 2 sm, yuxarıdan 2 sm, aşağıdan 2.5 sm olmaqla məsafə gözlənilməlidir.

3.2. Proqram üçün bir daxili və bir xarici (kənar) rəy alınmalıdır. Rəylər rəyçilərin imzaları və onların çalışdığı müəssisələrin möhürü ilə təsdiq edilməlidir.

3.3. Kafedra iclasında və Fakültə Elmi Şurasının iclasında müzakirə olunaraq proqramlara protokoldan çıxarış verilməlidir.

3.4. Müəlliflər proqramın nəşrinə dair İnstitutun rəhbərliyinə ərizə ilə müraciət etməli və ərizə notarial qayda da təsdiq edilməlidir.

3.5. Proqramlar bütün normativ sənədləşmə qaydaları təmin edildikdən sonra Universitet Elmi Şurasında müzakirə olunaraq təsdiq olunur. Bundan sonra yalnız məcburi fənlər üzrə proqramlar Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə qrift alınması üçün təqdim edilir.

3.6. Məzmununda və strukturunda 20%-dək dəyişiklik olan proqramlarbirbaşa təkrar nəşrə veriləbilər.

3.7. Məzmununda və strukturunda 20%-dən 50%-dəkdəyişiklik və təkmilləşdirmə halı qeydə alınan proqramlar əvvəlki qrif saxlanılmaqla nəşr edilir.

3.8. Məzmununda və strukturunda 20%-dən50%-dək dəyişiklik və təkmilləşdirmə halı qeydə alınan proqramlara kafedra iclasında, Fakültə Elmi Şurasının iclasında müzakirə olunaraq protokoldan çıxarış verilməli, bir daxili rəy alınmalıdır.

3.9. Məzmununda və strukturunda 50%-dən çox dəyişiklik və təkmilləşmə halı qeydə alınan proqramlar üçün əsas və yaxud seçmə fənlərə daxil olmasından asılı olaraq nazirlikdən və yaxud universitetdən yenidən qrif alınmalı və nəşr olunmalıdır.

3.10. Kafedra iclasında, Fakültə Elmi Şurasının iclasında müzakirə olunaraq ingilis dilinə tərcümə edilmiş proqramlara protokoldan çıxarış verilməli, düzgün tərcümə edilməsi haqqında uyğun xarici dil kafedrasından bir rəy alınmalıdır.

Titul vərəqi:

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

Ali məktəblərin bakalavriat səviyyəsi üçün

Nümunə: Psixologiya - ATMF

__________________________

FƏNNİ ÜZRƏ

P R O Q R A M

İxtisas:

Naxçıvan-20__

İkinci səhifə:

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

Ali məktəblərin bakalavriat səviyyəsi üçün

________________________
FƏNNİ ÜZRƏ

P R O Q R A M

İxtisas:

Çapa tövsiyyə olunması haqqında əsas

Naxçıvan-20__

Üçüncü səhifə:

Proqram Naxçıvan Dövlət Universitetinin
“______” kafedrasında hazırlanmış və kafedranın “___” tarixli (protokol № “__”) qərarı ilə çapa tövsiyyə edilmişdir.

Tərtib edən(lər):

Rəyçilər: (işlədiyi müəssisənin adı və vəzifəsi göstərilməklə)

Nəşriyyat:

**ƏSAS: Universitet Elmi- Şurasının 06 sentyabr 01 saylı iclasının protokolundan çıxarış, rektorun sərəncamı**

Verilsin: Tədris şöbəsi, mühasibat uçotu şöbəs, bütün fakültələr.

| | |
|---|---|
| Əlavə sənəd | |

| | |
|---|---|
| Təsdiq rəyi | [Pakizə Zeynallı Abbas:11 2 2023 3:43PM]<br>[Pakizə Zeynallı Abbas:11 2 2023 3:44PM]<br>[Əliyev Şahin Yusif:11 2 2023 5:10PM]<br>[Baxışlı Ülvü Rəfael:11 2 2023 5:27PM]<br>[Pakizə Zeynallı Abbas:11 4 2023 12:42PM]<br>[Pakizə Zeynallı Abbas:11 4 2023 3:32PM]<br>[Pakizə Zeynallı Abbas:11 4 2023 3:45PM]<br>[Pakizə Zeynallı Abbas:11 4 2023 3:47PM]<br>[Atilla Öztürk Əsgər oğlu:11 6 2023 11:43AM] |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Təsdiq | Pakizə Zeynallı Abbas | Əliyev Şahin Yusif | Baxışlı Ülvü Rəfael | Atilla Öztürk Əsgər oğlu | Rəhimov Rafiq Vilayət | İsayev Elbrus Saleh | Hüseynova Nüşabə Tofiq |
| | **Pakizə Zeynallı Abbas** | **Əliyev Şahin Yusif** | **Baxışlı Ülvü Rəfael** | **Atilla Öztürk Əsgər oğlu** | **Rəhimov Rafiq Vilayət** | **İsayev Elbrus Saleh** | **Hüseynova Nüşabə Tofiq** |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | 11/07 | 11/02 | 11/02 | 11/06 | 11/06 | 11/11 | 11/13 |

Alıcıların siyahısı

Daxili təsdiqləmə

| | |
|---|---|
| Qəbulun təsdiqi | |